**VAQİF YUSİFLİ**

# Payız zirvəsinə çatan bir şair - Xanəli Kərimli



**Xanəli Kərimli Naxçıxan ədəbi mühitinin yetirdiyi söz ustalarından biridir. O, Naxçıvanda yaşayır, amma böyük ədəbi aləmdə də tanınır. Türkiyədə və İranda da şeirlər kitabı çap olunub. Xanəlinin yaşı yetmişi keçib, amma ürəyindəki şeir odu sönmək bilmir. O öz payız ömrünü yaşayır.**

*Başladı payızın yağış nağılı,*
*Təbiət yuyundu toz-torpağını.*
*Quşlar-köçərilər köçüb getdilər,*
*Qalanlar gözləyir qış növrağını.*

*Ahıllıq bürüyüb çölü, çəməni,*
*Dəlisov küləklər həlimləşibdi.*
*Ağaclar mürgülü baxışlarıyla*
*Bir az da, bir az da gözəlləşibdi.*

*Bir payız da yola saldıq beləcə,*
*Xonçası əllərdə köçən qız kimi.*
*Nigaran-nigaran əl eyləyirdi*
*Göy üzündən axan bir ulduz kimi.*

Xanəli Kərimlinin bu payız şeiri ilə onun öz ömrü-şair taleyi arasında bənzərlik görürük. Amma payız təkcə yağış, külək və tez-tez dəyişən ab-hava demək deyil, həm də barlı-bəhrəli bir fəsildir. Xanəli Kərimli də bu yaşda yazmaqdan yorulmur.

"Tanrı müjdəsi" şeirlər və poemalar kitabı da bunun əyani sübutudur.

Amma o kitabdakı şeirlər, poemalar haqqında söz açmamışdan əvvəl onun 2024-cü il 15 noyabr "Ədəbiyyat qəzeti"ndə dərc olunan şeirlərinə də məzər yetirək (öncə misal gətirdiyimiz payız duyğulu şeiri də o qəzetdən oxuduq).

*Kövrək xatirələr yaşayırıq hələ ki,*
*Xatirələr bitəndə bitəcəkdi ömür-gün.*
*Yaşıyırıq zamanla gümanın arasında,*
*Çox şeylər də yadlaşıb yaddaşımda büsbütün.*

*İndi "Ələk ələnib, xəlbir göydə fırlanır",*
*Ələməyə ələklik qalmayıbdı darı da.*
*Beş əlli yapışsaq da dünyanın yaxasından,*
*Dünya filan dünyadı, yoxdu etibarı da.*

*Bu, bir güley-güzar, gəldi-gedər söhbətdi,*
*Elə-belə dolandı yaşın yaşlı çağında.*
*Yolun çoxu gedilib, qalsa da beş addımı,*
*Yenə də ləzzəti var indi yaşamağın da.*

Bu şeirdə iki duyğu bir-birini izləyir. Xatirələrlə ömür-gün keçirən, "zamanla güman arasında" yaşayıb, dünyanı etibarsız saysa da, yenə də yaşamaqdan doymur. Bu nikbinlik onun "Bütövlük" və "İnam" poemalarında daha qüvvətli şəkildə nəzərə çarpır.

Akademik İsa Həbibbəyli yazır: "Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir. Xanəli Kərimlinin vətəndaşlıq lirikası sadəcə qələmə aldığı aktual mövzuları ilə deyil, daha çox bu bədii nümunələrdəki fikrin ifadə vasitəsilə yadda qalır. Aşkar görünür ki, Xanəli Kərimli mövzunun aktuallığı, yaxud müasirliyi arxasında gizlənmir.

Əksinə, şair dostumuz imkan daxilində, daha çox çağımızın ciddi problemləri haqqında şair kimi danışır".

Xanəli Kərimli yaşının elə bir çağındadır ki, həyat, gözəllik, gerçəklik haqqında fərdi duyğu və düşüncələrini izhar edir.

Bunlar etiraflardır, elə etiraflar ki, ağlı-qaralı dünyanın çətinliklərindən keçən bir insan heç nəyi gizlətmir. Onun fikrincə "bir insan ömrünün yolu gah boş, gah dolu" ola bilər.

Şair "kişilik bir zirvədir ki..." şeirində insana xas olan kişiliyin, kişi şəxsiyyətinin mahiyyəti, mənasını açıqlayır: "KİŞİ" kimi yaşayanlar KİŞİ adı daşıyıblar, tarixlərin yaddaşında tarix kimi yaşayıblar" deyir.

Bir sıra şeirlərində isə bu adı doğrultmayan "kişilərin" mənasız ömrünü qınağa çevirir. "Demə ki, kişiyəm, kişi adım var, kişilik kişilər yanında olar".

Xanəli Kərimli "Nənəm xalça toxuyardı" şeiri mənə daha xoş təsir bağışladı - bu şeir təkcə ömrün xatirəli günlərini yada salmaq deyil, həm də milli-mənəvi sərvətlərimizə dərin ehtiramın sübutudur.

***Nənəm xalça toxuyardı,***
***Toxuduqca həvə-həvə,***
***Kirgit-girgit, çeşni-çeşni,***
***Gözündən yaş axıdardı:***
***"Xalçanı sərdim qara,***
***Ürəyimdə var yara,***
***Yurd-yuvasız bir quşam,***
***Allah, mən gedim hara"?***

"Nənəm nağıl deyərdi" şeiri də həmin ehtiramın başqa bir nümunəsidir.

Təbii ki, Xanəli Kərimlinin "Tanrı müjdəsi" şeirlər - poemalar kitabındakı bütün poetik nümunələr haqqında geniş söz aça bilmərəm. Amma şairin yeni kitabında onun poetik inkişafının və axtarışlarının şahidi oluram. Onun Türkiyə ilə bağlı təəssüratları da ("Nə mutluyam", "Mərmərə dənizi", "İstanbulda düşüncələr", "Türkə ağı demək olmaz", "Ağrıdağı", "Van gölü", "Qara dəniz") bu axtarışların bəhrəsidir.

Xanəli Kərimli bir şair kimi poetik formalara heç vaxt etinasız olmayıb. Onun ikilik və dördlük formasında yazdığı şeirlərdə bir maarifçilik yönünü hiss edirik. Bir çox şeirlərində ömrünün bu yetmiş - payız ömründə yaşadığı həyatın təcrübələrindən doğan qənaətləri öz əksini tapır.

**İkiliklərə nümunələr:**

***Tək Allahdan başqa bir kimsəyə sən***
***Ürəkdən bağlanma, zillət çəkərsən.***

***

***Özgə kölgəsində şah olsan da sən,***
***Öz kölgən yoxdursa, kiçi deyilsən.***

***

***Ömründə bir fidan bitirməyən kəs,***
***Bağ salıb bağbanlıq eyləyə bilməz.***

**Dördlüklərə nümunələr:**

***Bu daş - Vətən daşıdı,***
***Yol yoldaşım naşıdı,***
***O bilmir, bu daş deyil -***
***Ürəyimin başıdı.***

***

***Saldı məni dil-dilə,***
***Kim ağlaya, kim gülə,***
***Dərdli dərdini çəksin,***
***Kimdir göz yaşın silə!...***

Bu nümunələri izah etməyə ehtiyac varmı?

**Xanəli Kərimlinin - ömrünün payız zirvəsinə çatan bir şairin "Tanrı müjdəsi" şeirlər-poemalar kitabı haqda bu qısa qeydləri sona yetirirəm. Ona poeziya yollarında yeni uğurlar arzulayıram.**